# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

# İXTİSAS FƏNNİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMI

**Elm sahəsi:** **72 – Fəlsəfə elmləri**

**İxtisas:** **7202.01 – Fəlsəfi antropologiya**

Bakı Dövlət Unversitetinin Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının 19 mart 2026-cı il tarixli qərarı ilə təsdiq edilmişdir (Protokol №7)

**BAKI – 2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# İXTİSAS FƏNNİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMI

| | |
|---|---|
| **Elm sahəsi:** | **72 – Fəlsəfə elmləri** |
| **İxtisas:** | **7202.01 – Fəlsəfi antropologiya** |

Bakı Dövlət Unversitetinin Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının 19 mart 2026-cı il tarixli qərarı ilə təsdiq edilmişdir (Protokol №7)

**BAKI – 2026**

**Tərtib edən:**

f.ü.f.d., dos. Nərgiz Həmid qızı Məcidova

**Elmi redaktor:**

f.ü.f.d., dos. Kəmalə Həsən qızı Pənahova

## MƏZMUNU

Ümumi qaydalar
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
Birinci mövzu: Fəlsəfi antropologiyaya giriş
İkinci mövzu: Fəlsəfi antropologiya, onun mənşəyi, problem sahəsi və dissiplinar statusu
Üçüncü mövzu: Fəlsəfə və mədəniyyət tarixində insan obrazları
Dördüncü mövzu:Müasir fəlsəfədə insan problemi
Beşinci mövzu: Fəlsəfədə və elmdə antropogenez problemi
Altıncı mövzu: Fəlsəfə insan mahiyyəti axtarışında: insanın müəyyən edilməsi problemi
Yeddinci mövzu: Fəlsəfi refleksiyalar kontekstində insan bədəni (cismi) və biolojiliyi (cismaniliyi)
Səkkizinci mövzu: İnsanın mənəvi dünyası və onun sosial-fəlsəfi xarakteristikası
Doqquzuncu mövzu: İnsan varlığının ekzistensial ölçüsü
Onuncu mövzu: Şüur fəlsəfəsi
On birinci mövzu: İnsan sosial münasibətlər sistemində
On ikinci mövzu: İnsan, cəmiyyət və qloballaşma. İnsan inkişafı

Bölmə IV. Tədris-metodik və informasiya təminatı
Bölmə V.Qiymətləndirmə meyarları
Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

7202.01 - "Fəlsəfi antropologiya" elmi ixtisas üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi fəlsəfi antropolgiya istiqamətində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahəni elmi və elmi-pedaqoji kadrlarla, həmçinin müasir elmi metodlara yiyələnmiş yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu aşağıdakılardır:**

Fəlsəfi antropologiya fənninin tədrisində məqsəd insanı fəlsəfi baxımdan bütöv şəkildə anlamaq üçün tələbələrdə konseptual və analitik düşünmə bacarığını formalaşdırmaqdır. Bu məqsəd çərçivəsində fənn insanın mahiyyətini və mövcudluq şərtlərini, cismani və mənəvi, bioloji və sosial ölçülərin qarşılıqlı əlaqəsini, insanın təbiət və mədəniyyətlə münasibətini, həmçinin idrak imkanlarını və sərhədlərini izah etməyə yönəlir. Eyni zamanda tədris prosesində "insan" anlayışına təbiət elmləri (psixoloji, tibbi, bioloji və s.) yanaşması ilə fəlsəfi yanaşmanın fərqləndirilməsi, müasir dövrün reallıqları (texnoloji inkişaf, rəqəmsallaşma, qloballaşma və ekoloji çağırışlar) fonunda insanın dəyişən mövqeyinin dərk edilməsi əsas hədəf kimi götürülür.

**Tədqiqatın obyekti aşağıdakılardır:** mədəniyyət kontekstində insan varlığının ümumbəşəri problemlərinin tədqiqində dünya fəlsəfi düşüncəsinin təcrübəsini açmaq; insanda mənəvi və cismani, bioloji və sosial tərəflərin qarşılıqlı münasibətinin mənasını, insanın təbiətə münasibətini və texniki inkişaf dövründə qlobal xarakter daşıyan ziddiyyətləri anlamaq; dünyanın mənimsənilməsi prosesində insanın idrak imkanlarını dərk etmək; insana təbii-elmi və fəlsəfi baxışı formalaşdırmaq; müasir dövrün reallıqlarının, insanın həyat fəaliyyəti formalarının, habelə mədəniyyət və elmin fundamental problemlərinin dərkində fəlsəfi-antropoloji ideyaların əhəmiyyətini əsaslandırmaq.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının - 72 - “Fəlsəfə” hazırlıq istiqaməti, 7202.01 - “Fəlsəfi antropologiya” istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

- elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 72 - “Fəlsəfə” hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların

hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının – doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər, o cümlədən idarəetmə üzrə ümumi və xüsusi biliklər, səmərəli idarəçilik fəaliyyətinə aid biliklər və bacarıqlar arasında uyğunluğu təyin etmək;

- doktorantın fəlsəfi antropologiyanın kateqoriya və anlayışlarını, metodoloji əsaslarını (insan anlayışının fəlsəfi rekonstruksiyası; şəxsiyyət, subyektlik, agentlik; cismanilik, şüur və özünüdərk; mədəniyyət–təbiət münasibəti; tarixi-mədəni şərtlənmə; texnoloji vasitələnmə və s.) nə dərəcədə mənimsədiyini aşkar etmək;

- doktorantın nəzəri və tətbiqi xarakterli antropoloji problemləri təhlil etmək, insan varlığının müxtəlif ölçüləri arasındakı sabit və təkrarlanan əlaqələri müəyyənləşdirmək, bu əsasda müasir reallıqları (mədəni transformasiyalar, rəqəmsallaşma, qloballaşma və s.) fəlsəfi-antropoloji baxımdan izah etmək və nəticə olaraq etik və sosial implikasiyaları əsaslandırmaq bacarığını qiymətləndirmək;

- doktorantın tədqiqat metodlarını müstəqil mənimsəmək, müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həllində yeni ideyalar irəli sürmək, əsas problemləri seçmək, onların həlli yollarını və üsullarını modelləşdirmək qabiliyyətini müəyyən etmək

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

- müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

- müvafiq peşə sahəsində müasir tədqiqat metodlarından və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

- Fəlsəfi antropologiya, onun mənşəyi, problem sahəsi və dissiplinar statusunu;
- Fəlsəfə və mədəniyyət tarixində insan obrazlarını;
- Fəlsəfədə və elmdə antropogenez problemini;
- Fəlsəfə insan mahiyyəti axtarışında: insanın müəyyən edilməsi problemini;
- İnsanın mənəvi dünyası və onun sosial-fəlsəfi xarakteristikasını;
- İnsan varlığının ekzistensial ölçüsünü;

-Şüur fəlsəfəsini;
-İnsan sosial münasibətlər sistemində yerini;

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- Biliklər sistemində fəlsəfi antropologiyanın meydana gəlməsi və statusunu müəyyən etmək;
- Fəlsəfi antropologiyanın predmeti, vəzifələri, funksiyalarını müəyyən etmək;
- Fəlsəfi antropologiyanın başlıca problemlərini aşkara çıxarmaq;
- Şərq və Qərb fəlsəfi fikir tarixində insan probleminin təkamülü prosesinin əsas mərhələlərini izləmək, onun bu fenomenin müasir anlamına təsirini üzə çıxarmaq;
- Antropogenez probleminin mahiyyəti, onun insanın mahiyyəti problemi ilə kəsişməsini araşdırmaq;
- Fəlsəfə tarixində insan təbiəti anlayışının məzmununun inkişafına diqqət yetirmək;
- Tarixi-fəlsəfi ənənədə həyatın mənası axtarışlarının varlığın son həddə qədər əsaslandırılması ilə əlaqələndirimək;
- Ölümün interpretasiyasının fəlsəfi təqdimatları, həyat və ölüm dualizmi, ölümün mütləqləşdirilməsi;
- Şəxsiyyətin sosiallaşma prosesində başlıca

mexanizmlər və institutları müəyyən etmək;

**bacarıqlar:**

-İnsan varlığının (cismani–mənəvi, bioloji–sosial, fərdi–mədəni) müxtəlif ölçüləri ilə bağlı problemləri fəlsəfi-antropoloji yönümdən izah etmək və onların həllinə dair nəzəri yanaşmalar irəli sürmək;

-Fəlsəfi-antropoloji dünyagörüşə əsaslanmaqla müstəqil düşüncə tərzi formalaşdırmaq, “insan nədir?” sualını tarixi-mədəni və müasir kontekstlərdə əsaslandırılmış şəkildə qoymaq və mövqeyini müdafiə etmək;

-Fəlsəfi antropologiyanın əsas prinsip və anlayışlarına (şəxsiyyət, subyektlik, identiklik, bədənlilik, şüur, təcrübə, simvolik forma, fəaliyyət, ünsiyyət və s.) yiyələnmək, elmi idrakın forma və metodlarını antropoloji təhlilə tətbiq etmək;

-Fəlsəfi terminoloji-kateqorial aparatdan istifadə etməklə konseptual analiz aparmaq, elmi müzakirələrdə arqument qurmaq, antropoloji mövqeləri müqayisə etmək və tənqidi qiymətləndirmək;

-Təbiət–mədəniyyət, insan–texnologiya, fərd–cəmiyyət, norma–təcrübə kimi münasibətlərin təhlilində sistemli yanaşma bacarıqları əldə etmək, müasir dövrün reallıqlarını (rəqəmsallaşma, qloballaşma, ekoloji çağırışlar və s.) fəlsəfi-antropoloji müstəvidə şərh etmək.

**vərdişlər:**

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil nəzəri və empirik tədqiqat aparmaq qabiliyyəti;

- tədqiqat işinin müxtəlif metodlarını fərqləndirmək;

- fəlsəfi konsepsiyalarla praktiki iş vərdişlərinə, fəlsəfi düşüncə mədəniyyətinə malik olmaq;

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

### Birinci mövzu: Fəlsəfi antropologiyaya giriş

Müasir "antropoloji partlayış"ın, "antropoloji intibah"ın mahiyyəti. Müasir antropoloji bilik: çoxsahəvilik (regional antropologiya) və insan haqqında mövcud biliklərin inteqrasiya olunma zərurəti. Humanitar biliklərdə antropoloji tendensiyalar. İnsan haqqında dini, bədii, elmi, fəlsəfi yanaşmalar. Fəlsəfi antropologiya haqqında nəzəri diskussiyalar. Fəlsəfi antropologiya və antropologiyanın digər növləri.

### İkinci mövzu: Fəlsəfi antropologiya, onun mənşəyi, problem sahəsi və dissiplinar statusu

Fəlsəfi antropologiyanın predmeti, vəzifələri, funksiyaları. Fəlsəfi antropologiyanın başlıca problemləri. Biliklər sistemində antropologiyanın meydana gəlməsi və statusu. İnsanın dərkində başlıca yanaşmalar. Müasir fəlsəfi antropologiyanın problem dairəsi. Antropogenez problemi. Mahiyyət və mövcudluq. İnsanda bioloji və sosial tərəfləri. Qeyri-şüuri və şüur. Fərd və şəxsiyyət. Həyatın mənası və məqsədi. İnsan sırf fəlsəfi diskurs dərkinin predmeti kimi. Elmdə və fəlsəfədə "insan" anlayışı. İnsan və filosofluq edən insan. Fəlsəfi antropologiya insan haqqında (mahiyyətinin dərki, təzadlı tamlığı, azadlığı, insanın əbədi, universal, təşəkkül tapmaqda olan təbiəti

barədə) yeganə mümkün təlim kimi. Fəlsəfədə antropoloji prinsip. Fəlsəfi antropologiya geniş və dar anlamda. “Öz-özünü dərk et” prinsipinin ikimənalılığı: dünyanı dərk edərək özünü dərk etmək və özlüyündə özünü dərk etmək. Fəlsəfi antropologiyada refleksiya. Fəlsəfi antropologiyanın meydana çıxması: insanın öz problemliyini dərk etməsi. Antropologiya haqqında Kantın fizioloji və praqmatik yanaşmaları. Fəlsəfi bilik sistemində fəlsəfi antropologiya. Fəlsəfi antropologiyanın müasir durumu. Antropologizm, antroposentrizm, antropomorfizm, humanizm metodoloji və dünyagörüşü yanaşmaları.

## Üçüncü mövzu: Fəlsəfə və mədəniyyət tarixində insan probleminə yanaşmalar

Qərb və Şərq fəlsəfi ənənələrində insan fəlsəfi refleksiyaların predmeti kimi. Qədim Şərq: insan təbii, sosial və sakral olanların üzvi bütövlüyü kimi.. Antik fəlsəfədə insanın “kosmopolitizm”i: tale və vəzifələrin qətiliyi. Platonçuluqda, aristotelizmdə insan mahiyyətinin şərh olunması. Orta əsrlər dövründə şəxsiyyət ideyası və antropologiyanın teoloji əsasları. Renesans humanizmində universal şəxsiyyət konsepsiyası. R.Dekartın insan haqqında dualist təlimi. R.Dekartın “Metod haqqında düşüncələr” və “Nəfsin istədikləri” əsərləri. Kartezian bölgüsü Cogito: şüurun özgüvənc prinsipi. Mexaniklik və cismaniliyin təqdimatı. İdeyaların inkişafı və tənqidi: B.Spinoza, N.Malbranş. Maarifçiliyin ingilis-fransız modellərində “insan-maşın”.

Alman klassik fəlsəfəsində insan varlığının transendental və mədəni-tarixi əsasları. İ.Kantın antropoloji layihəsi (“Praqmatik nöqteyi-nəzərdən antropologiya”). Q.V.F. Hegelin “Ruhun fenomenologiyası”nda Qul və Ağa süjetində dərk və özünüdərk problemi; tanıma problemi. L.Feyerbaxın antropoloji ideyası və din problemləri.

**Dördüncü mövzu: Müasir fəlsəfədə insan problemi**

XX əsrin antropoloji dönüşü. Bu dönüşün sosial-siyasi aspektdə və elmin tarixində əsaslandırılması. Fəlsəfi antropologiyanın alman məktəbi. M.Şelerin antropoloji təlimi; aksiologiya və sosiologiya. X.Plesner: insan mövcudluğunun bazis strukturunun axtarışları. A.Helen: müasir antropologiyada insan layihəsi; sosial institutların antropoloji anlamı. Ekzistensional problematika.

Müasir fəlsəfi antropologiyada ekzistensional-personalistik strategiyası. Dini fəlsəfədə personalizm ideyasının inkişafı. Müasir personalizmdə(M.Bubber, K.Yasper, E.Munye) şəxsiyyətin kommunikativ təbiəti. M.Haydeggerin ekzistensional ontologiyası. Fransız ekzistensional fəlsəfəsində azadlıq problemi (J.P.Sartr, A.Kamyu).

**Beşinci mövzu: Fəlsəfədə və elmdə antropogenez problemi**

İnsanın yaranması problemi: metodoloji prinsiplər, həllin başlıca hipotezləri. Antropogenez probleminin mahiyyəti, onun insanın mahiyyəti problemi ilə kəsişməsiAntropogenezin problemli tərəfləri, başlıca çətinlikləri, mövhumat. Antropogenez problemlərinin insanın bioloji növ, yaxud insan cismaniliyinin meydana çıxması ilə əlaqələndirilməsi stereotipi. Antropogenez və sosiogenezin vəhdəti. Heyvanat aləmində informasiyanın ötürülməsinin genetik özəlliyi və sosial yaddaş, sosial varislik. İnsan təcrübəsinin predmetləşdirilməsi. Əmək, şüur, dil – onların meydana gəlməsi problemi. Antropososiogenez problemlərinin analizində metodoloji insan filo və ontogenezinin vəhdəti prinsipi. Biolojidən sosial formaya keçiddə iki sıçrayiş nəzəriyyəsi. İnsanı əmək yaratmışdır. İnsanın yaxud insana aid olanların əbədiliyi ideyaları. Daxili inqilab: refleksiyaların meydana çıxması. Antropogenezin problemlər sahəsinə psixogenezin əlavə edilməsi zərurəti. İnsan kosmogenezin məhsulutək kosmoplanetar fenomen kimi. İnsanın kainatdakı atributivliyi ideyası. İnsan kosmosun bütün nizamlarının düyünüdür. Kosmologiyanın antrop prinsipi.

**Altıncı mövzu: Fəlsəfə insan mahiyyəti axtarışında: insanın müəyyən edilməsi problemi**

Fəlsəfədə insan mahiyyəti. İnsanın anlaşılmasındakı nəzəri çətinliklər. İnsandakı insanilik: insanın məzmunu (insanın öz mahiyyəti ilə

eyniləşdirilməsi; insandakı yad olanlar, qeyri-insani komponentlər). İnsan mahiyyətinin müəyyən edilməsinə başlıca yanaşmalar: transendent, natural, sosioloji, antroposentrist. İnsanın polyar, bir-birini inkar edən səciyyələri. Azadlıq insan varlığının əsası kimi. İnsanın çoxtərəfliliyi və ziddiyyətliliyi. İnsanın mahiyyət və mövcudluğu. İnsan mahiyyətinin özgələşməsi.

Müasir fəlsəfədə və klassik naturalist ənənədə insanı biolojiləşdirən baxışlar. Biheoverizim və neobiheoverizimdə insanın funksional davranış modeli (E.Torndayk, C.Uotson, F.Skinner). Pozitivist antropologiyada (O.Kont, H. Spenser) təkamülçülük və üzvülük ideyaları. Şəxsiyyət və mədəniyyətin inkişafında genetik əsaslar haqında müasir sosiobiologiya (E.Uilson, Ç. Lamsden, M.Ryuz, D.Fridmen). Müasir fəlsəfə və mədəniyyətdə transhumanizım fenomeni.

Müasir fəsəfədə sosiolaşdırıcı konsepsiyalar. K.Marks fəlsəfəsində insanın sosial-tarixi təbiəti. Marksizm və postmarksizmdə (M.Horkhaymer, Tadorno, H.Markuze, Y.Habermas) özgələşmə problemi və futuroloji ideallar. Strukturalist antropologiya: dil və hakimiyyət diskurslarına görə insan (K.Levi-Stross, J. Lakan, M.Fuko). İnsan subyektivliyinin tənqidi, poststrukturalizm və postmodernizmdə (R.Bart, J.Derrida, J.Bodriyar, J.F.Liotar) “müəllifin ölümü”.

**Yeddinci mövzu: Fəlsəfi refleksiyalar kontekstində insan bədəni (cismi) və biolojiliyi (cismaniliyi)**

İnsan mövcudluğunun sosiomədəni səciyyəsi. İnsan bütün fiziki və bioloji qanunların təsiri altında olan maddi, sonlu, hisslərə sahib varlıq kimi. İnsan bədəni ilə əlaqədar mədəniyyətdə dixotomluq və holizm. Holistik yanaşma insan bədənini və ruhunu vəhdətdə götürən kimi. L.Maslouya görə insan tələbatları və istəkləri və onların iyerarxiyası. Tələbatlara iki başlıca yanaşma: maddi və mənəvi, əsas (baza) və yaradılmış olanlar. M.Merlo-Pontiyə görə insanın fenomenal cismaniliyi. Z.Freyd və K.Q.Yunqun psixoanalizində insanın cismaniliyi problemi. Arxetiplər kollektiv qeyri-şüuriliyin elementi kimi.

**Səkkizinci mövzu: İnsanın mənəvi dünyası və onun sosial-fəlsəfi xarakteristikası**

İnsanın mənəvi aləmi və onun sosial fəlsəfi mahiyyəti. Cəmiyyətin mənəvi sferası bütöv bir tam kimi. Onun əsas tərəfləri və elementləri. Mənəvi fəaliyyətin daxili məzmunu. Mənəvi fəaliyyəin spesifik cəhətləri. İnsanın emosiyaları və ona dair baxışlar. “Ceyms-Langs” nəzəriyyəsi. U.Kennonun emosiyaların mənşəyi haqqında nəzəriyyəsi. S.A.Rubinşteynə görə şəxsiyyətin emosional təzahürü. Yaradıcılıq və onun məhiyyəti. İntuisiya və onun mahiyyəti. İntuisiya idrakın spesifik metodu kimi.

## Doqquzuncu mövzu: İnsan varlığının ekzistensial ölçüsü

Fəlsəfədə həyat və ölüm paradoksları. Fəlsəfi ənənələrdə ruh ideyası və həyat anlayışı. Ruhun anlaşılmasında mifoloji, dini və fəlsəfi kontekstlər.

Qədim Hind fəlsəfəsində ruhun başlıca konseptləri. Antiklikdə ruhun maddiliyi və qeyri-maddiliyi problemi. Ruh bədənin entelexiyası kimi. Yeni dövr Avropa düşüncəsində ruh ağıl, həyat hərəkət kimi. Ruh və psixiki olanlar müasir psixologiya elmində. Müasir bioetikada həyat və ruh kateqoriyalarının vurğulanması.

Orta əsrlərdə və İntibah dönəmində şəxsiyyətin tanrılaşdırılması. Fəlsəfi ekzistensionalizmdə həyatın mənası və absurd.

Mədəniyyət fəlsəfəsində "ölümün mənası" problemi. Qədim mədəniyyətlərdə həyat və ölümün kosmoloji interpretasiya variantları. Dini şüurda ruhun ölməzliyi ideyası.

Ölümün interpretasiyasının fəlsəfi təqdimatları. Həyatın apologiyası və ölümün annihilasiyası: Epikür və Platonun layihələri. Həyat və ölüm dualizmi (F.Nitşe, Z.Freyd, M. Haydeger). Ölümün mütləqləşdirilməsi: həyat ölümdən ölümə keçid kimi (qədim Hind fəlsəfəsi, postmodern). Fəlsəfə və mədəniyyətdə ölümsüzlük.

Mədəniyyət fəlsəfəsinin inkişafında "Mən" obrazı və azadlıq ideyası. Orta əsr ənənələrində iradə azadlığı probleminə münasibət. Renesans humanizmində azadlıq yaradıcılıq kimi və insanın ilahiləşdirilməsi cəhdləri. Cogito fenomeni və azadlığın rasionalist

interpretasiyası: azadlıq və zərurət. XX əsr fəlsəfəsində azadlığın eqzistensional-şəxsi interpretasiyası: azadlıq və məsuliyyət. Postmodern situasiyada azadlıq və yaradıcılıq ideallarının diskreditasiyası.

## Onuncu mövzu: Şüur fəlsəfəsi

Şüur fəlsəfi analizin obyekti kimi. Fəlsəfə və elmdə izləmə problemi, şüur fenomeninin rekonstruksiyası. Şüurun öyrənilməsinin ekstravertiv metodları: Neyrofizioloji, sosial-praktik, semantik. İntrospektiv metodologiyanın sərhədləri və imkanları. Şüur fenomeninin çoxölçülülüyü. Fəlsəfədə şüurun başlıca interpretasiya paradiqmaları: substansional, funksional, ekzistensional-fenomenoloji, sosiomədəni.

Substansionalizmin tarixi-fəlsəfi təqdimatları. Klassik fəlsəfədə təfəkkür və varlığın eyniliyi prinsipi və şüurun ontoloji əsaslandırılması. Antik fəlsəfədə ruhun və ağlın kosmologizmi. Orta əsrlər dönəmində ruh və həyatın teoloji interpretasiyaları. Şüurun qnoseoloji modelləri. Anadangəlmə ideyalar konsepsiyası və cogito-nun Yeni dövr Avropa fəlsəfəsində statusu. Alman klassik fəlsəfəsində ağlın transendental əsaslandırılması. Qeyri-klassik fəlsəfədə neosubstansionalizm (Q.Freqe, K.Levi-Stross).

Fəlsəfədə şüurun funksional modeli. Şüur tabula rasa kimi və ingilis empirizmində induktivizm prinsipi. İngilis-fransız maarifçiliyində psixikanın təbiətinin assosiativ konsepsiyası. Vulqar materializmdə təfəkkürün psixofizioloji əsasları haqqında. Dialektik

materializm şüurun yaradıcı təbiəti haqqında: öncələyən inikas ideyası. Müasir elmi materializmdə şüurun reduksionist təqdimatı.

Müasir fəlsəfədə şüurun ekzistensionalist fenomenoloji interpretasiyası. E.Hüsserl fəlsəfəsində şüurun intensional təbiəti ideyası: şüur məna əmələgətirici kimi. Şüurun fenomenologiyası M.Haydegger fəlsəfəsində insanın mövcudluq ontologiyası kimi. M.Merlo-Ponti fəlsəfəsində cismanilik ideyası transendentalizmi dəf etmək təcrübəsi kimi. J.P.Sartr fəlsəfəsində təbiət və intersubyektivlik ziddiyyətləri.

Şüurun mənşəyi problemi. Təbiətdə inikas formalarının təkamülü şüurun meydana çıxmasının müqəddəm şərti kimi. İnikas və informasiya. İnsan şüuru və heyvanların psixikası. Şüurun mədəni mənşəyi: görünən-əməli, görünən-obrazlı, inkişafın simvolik və anlayışlı mərhələləri. Dilin meydana gəlməsi və inkişafı: başlıca interpretasiya modelləri. Fəlsəfə və psixologiyada şüurun filo və ontogenez vəhdəti problemi. Genetik psixologiya (J.Piaje) intellektik formalaşması mərhələləri və mexanizmləri haqqında.

Struktur-funksional səciyyə və şüur. Psixoanalizdə qeyri-şüurilik fenomeni. Z.Freyd psixikanın funksionallığının strukturu və mexanizmləri haqqında. Şüur system kimi. Şüurun hissi emosional, qiymətləndirici və abstrakt-diskursiv səviyyələri. Şüurun koqnitiv, aksioloji və nizamlayıcı təzahürləri. Şüurun dinamik modusları: yaddaş, diqqət, təxəyyül. Şüurun

başlıca vəziyyəti və dəyişdirilmiş şüurun metamarfozları.

Təfəkkürün obrazlı-assosiativ və abstrakt-məntiqi tipləri. K.Q.Yunq iki tip: Şərq (intravert, sinxronlaşdırma əlaqələri) – Qərb (ekstravertiv, səbəbiyyət və məqsədyönümlü əlaqələr) təfəkkürün tarixi-mədəni müxalifliyi haqqında. Koqnitiv psixologiyada assosiativ və intellectual sxemlərin qarşılıqlı asılılığı haqqında təsəvvürlər.

## On birinci mövzu: İnsan sosial münasibətlər sistemində

Şəxsiyyətin sosiallaşma prosesi: başlıca mexanizmlər və institutlar. Birinci və ikinci sosiallaşma anlayışları. Fəlsəfə və mədəniyyətdə uşaqlıq fenomeni. Postfiqurativ, kofiqurativ və prefiqurativ mədəniyyətlər (M.Mid). E.Erikson insanın başlıca inkişaf mərhələləri və sosiallaşması haqqında. Sosiallaşma institutları: ailə, ənənə, təhsil, KİV. Psixoanalitik fəlsəfə şəxsiyyətin formalaşmasında ailə münasibətlərinin statusu haqqında. Psixoanaliz və simvolik interaksionizmdə identifikasiya anlayışı: Mən-real olan, Mən-ideal olan, Mən-əks olan. Mədəni ənənə şəxsiyyətin sosiallaşması mexanizmi kimi: tarix və müasirlik. Müasir sosiomədəni mühtin xüsusiyyətləri sosiallaşdırma faktoru kimi: KİV sənayesi və kompüter texnologiyaları.

Təhsilin fəlsəfəsi. Təhsil sosial institut kimi, biliklər sistemi və subyekt-subyekt qarşılıqlı təsiri. Mədəniyyətin inkişafında təhsilin başlıca strategiyaları.

Qədim Hindistanda təhsilin ritual-mistik istiqamətli olması. Qədim Çində təhsilin dünyəvi, ritual-təcrübi səciyyəsi. Antik dövr Maarifçiliyinin məntiqi-ritorik təbiəti. Orta əsrlər mədəniyyətində universitet ideyası: universalizm və doqmatizm. Maarifçiliyin ensiklopedik idealı və məktəblərin ortalığa çıxması. Müasir mədəniyyətdə ümumi orta təhsilin kolliziyaları. İnformasiya cəmiyyətində təhsilin innavasion metodikalarına edilən vurğu.

Fəaliyyət insanın başlıca səciyyəsi kimi. Fəaliyyət anlayışı və onun strukturu. Fəaliyyətin tipləri. Marksizmdə əmək insanın mahiyyətinin əsas ünsürü kimi. Əmək texnologiyaları və şəxsiyyətin tarixi tipologiyası.

Müasir fəlsəfədə əmək və iş anlayışları. Əmək sferası və gündəlik olanların strukturu. Mədəni dinamikada asüdə və iş vaxtlarının nisbəti. Müasir humanitar bilikdə davranış kateqoriyası. Davranışın biheviorist, psixoanalitik və sosial-psixoloji konsepsiyaları. Sosial fəaliyyət anlayışı və onun strukturu.

Fəlsəfədə yaradıcılıq mövzusu. Yaradıcı fəaliyyətin mexanizmləri və formaları. Yaradıcılıq və ilhamlanma, yaradıcılıq və azadlıq, yaradıcılıq və oyun, yaradıcılıq və əmək. Müasir fəlsəfədə yaradıcılığın dini, psixoanalitik və ekzistensional-fenomenoloji konsepsiyaları. Fəlsəfə tarixi və mədəniyyətində müəllif ideyası: roma hüququnda yuridik interpretasiya; orta əsr ənənələrində teoloji olanlar. R.Bart klassik tənqiddə

müəllifin statusu haqqında. Postmodern fəlsəfədə müəllifin ölümü mövzusu.

Şəxsi təcrübədə ünsiyyət və kommunikasiya. Müasir fəlsəfədə kommunikativ dönüş. Kommunikasiya və ünsiyyət. Müasir fəlsəfədə ünsiyyət və dialoqun problemi. Tənhalıq fenomeni: anlaşma imkanları və sərhədləri. Müasir fəlsəfədə intersubyektivlik problemi və şəxsiyyətin özünü identifikasiya etməsi mexanizmləri. Kütləvi kommunikasiya və kütlə mədəniyyəti fenomeni. Kütlə insanı: həmrəylik və tənhalıq ziddiyyəti.

Q.M.Maklyuen kommunikasiyanın tarixi tipləri haqqında. Audio, video və sintetik kommunikasiyaların mədəni özəllikləri. Kommunikasiya tiplərindən asılı olaraq şəxsiyyətin sosiomədəni identikləşdirmə formalarının dinamikası: ada görə, nəslə, məkana, peşəyə mənsubluğa; biznes və kapitala görə identifikasiya. Müasir informasiya məkanında virtuallaşma. Virtual kommunikasiyanın problemləri və perspektivləri.

## On ikinci mövzu: İnsan, cəmiyyət və qloballaşma. İnsan inkişafı

Sosial tərəqqinin sürətlənməsini şərtləndirən amillər: insanların elmi bilikləri, təhsil və peşə hazırlığı, siyasi şüurluğunun artması, şəxsiyyətin azadlığının genişlənməsi, xalqların beynəlxalq əlaqələr sisteminə və ünsiyyətə cəlb olunması, sosial iqtisadi, siyasi və mədəni proseslərin beynəlmiləlləşməsi. Müasir qlobal

problemlərin antropogen faktorı. İnsan sivilizasiyasının fəlakət qarşısında olması. Müasir dövrün qlobal problemləri. İnsan və bəşəriyyətin gələcəyinin öyrənilməsi. Elmin inkişafının insan haqqında təsəvvürlərə təsiri. Gen mühəndisliyi, biotibbi araşdırmalar və biotexnologiyalar.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat:**

1.Haciyev Z.Fəlsəfə.Bakı: Adiloğlu, 2000, 640 s.
2.İmanov H.R.,Fəlsəfənin əsasları.Bakı, 2007. VI bölmə
3.Məmmədov Ə.B., İbrahimov İ.A.İnsan haqqında fəlsəfi düşüncələr.Bakı,2000,səh.3-178
4. Məmmədov Ə.B. Müasir təbiətşünaslığın konsepsiyaları. Bakı, 2002.
5. Qəhramanov N.F., Məmmədov Ə.B. Təbii-elmi biliyin fəlsəfi əsasları. Bakı-Elm-2014.
6.Mustafayev A.X., Məmmədov Ə.B.,Təbii-elmi idrak və insan dünyası.,Bakı,2001.
7.Rüstəmov Y.Fəlsəfənin əsasları.Bakı, 2000.
8.Səttarov M.M.İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı,2000, səh 18-30
9. Tağıyev A.İ.. Müasir təbiətşünaslığın konsepsiyaları. Bakı, 2012.
10.Tağıyev A.İ. Antropologiya.
11.Tağıyev A.İ. Fəlsəfə

**Əlavə ədəbiyyat:**

12.Августин Аврелий. Исповедь. СПб.: Азбука, 2011.
13.Агацци Э. Человек как предмет философии // Феномен человека: Антология. - М., 1993. - С.142-155.

14.Адо П. Духовные упражнения и античная философия. СПб., 2005.
15.Айер А. Человек как предмет научного исследования // Феномен человека: Антология. - М.,1993. - С. 123-142.
16.Алексеев В.Т. Становление человечества. - М., 1984.
17.Андреев И.Л. Происхождение человека и общества. - М., 1987.
18.Баткин Л.М. Итальянское Возрождение в поисках индивидуальности. - М.,1989.
19.Бачинин В.А. "Человек-паук" и "человек-зверь": две ипостаси "естественного человека" //Человек. - 4, 2001. - С. 49-66.
20.Бутовская М.Л., Файнберг Л.А. У истоков человеческого общества. - М., 1993.
21.Веряскина В.П. Концепт "образцового человека" // Человек. - 2004. - 4.
22.Волков Ю.Г. Целостная личности: сущность, пути формирования. - Ростов н/Д, 1985.
23.Гаджикурбанова П.А. «Духовные упражнения» или «забота о себе» (стоическая этика в интерпретации П. Адо и М. Фуко) // Этическая мысль. Вып. 9. М.: ИФ РАН, 2009.
24.Гвардини Р. Конец нового времени // Феномен человека: Антология /Сост., вступ. ст. П.С.Гуревича. - М., 1993. - С. 240-296.
25.Гегель Г.Ф.В. Феноменология духа. СПб.: Наука, 2006.

26.Гелен А. О систематике антропологии (пер. А. Ф. Филиппова) // Проблема человека в западной философии. М.: Прогресс, 1988.
27.Гелен А. Образ человека в свете современной антропологии // Личность. Культура. Общество. 2007. № 3.
28.Гиренок Ф.И. Антропологические исследования. Кант и Гегель. - М., 2001
29.Горелов А.А., Горелова Т.А. "Расщепленный" человек и идея всеединства // Человек. - 2004. -5.
30.Григорьева Т. П. Дао - путь к человеку // Человек. - 2003. - } 5, 6.
31.Губин. Некрасова. Философская антропология.
32.Гуревич П.С. Философская антропология. Учебное пособие для вузов. - М.: NOTA BENE, 2001.- 456 с.
33.Гусейнов А.А. Что же мы такое? // Человек. - 2001. - } 1. С. 5-19.
34.Ильин В.В. Философия: учеб. для вузов: [в 2 т.]. Т. 2: Социальная философия.
35.Кант И. Антропология с прагматической точки зрения. М.: URSS. 2010
36.Леви-Строс К. Структурная антропология. М.: Наука, 1983.
37.Лурье С.В. Психологическая антропология: история, современное состояние, перспективы. М.: Академический проект, 2003
38.Мамардашвили М. Картезианские размышления. - М., 1993.

39.Несмелов В. И. Наука о человеке. - СПб, 2000.
40.Новосадов Б.К. Концепция современного естествознания в высшем образовании в XXI веке. М., 2005
41.Платон. Апология Сократа // Платон. Сочинения в 4 тт. Т. 1. СПб.: СПбГУ, 2006. Декарт Р. Человек. М.: Праксис, 2012.
42.Перов Ю.В. Человек в социальной философии Нового времени // Человек в зеркале наук. -СПб., 1993
43.Садохин А.П.. Концепция современного естествознания. М., 2006.
44.Сайкина Г.К. Человек в поисках идентичности: учебное пособие по философской антропологии / Г. К. Сайкина; Казан. гос. ун-т.-Казань: Казанский государственный университет, 2009.-122 с.
45.Сартр Ж.-П. Экзистенциализм - это гуманизм // Сумерки богов. - М., 1990. - С. 319-344.
46.Социальная антропология: Учебник / В.И. Добреньков, А.И. Кравченко; Московский Государственный Университет им. М.В. Ломоносова (МГУ). - М.: ИНФРА-М, 2009. - 688 с.
47.Спиноза Б. Этика. СПб.: Аста-пресс, 1993. Богданова М.А. Гегель и Бодрийяр: Раб и Господин в символическом обмене // Философско-антропологические исследования. 2008. № 3/4.
48.Тищенко В.И. Природа человека и современная наука // Современная наука: познание человека. - М., 1988.

49.Файнберг Л.А. У истоков социогенеза: от стада обезьян к общине древних людей. - М., 1980.
50.Фейербах Л. Сущность христианства // Фейербах Л. Избр. филос. произведения. - Т. 2.- М.,1990.
51.Философская антропология. Аксиология. Философия истории. - Ростов-на-Дону: Феникс, 2006.
52.Философия: Учебник / Э.В. Островский. - М.: Вузовский учебник: НИЦ Инфра-М, 2013. - 313 с.
53.Философская антропология: Учебное пособие / В.Д. Губин, Е.Н. Некрасова. - М.: Форум, 2008.- 400 с.
54.Филин С. Концепция современного естествознания. М., 2012.
55.Философская антропология Макса Шелера: уроки, критика, перспективы. СПб.: Алетейя,2011.
56.Хайдеггер М. Бытие и время. - Харьков, 2003.
57.Шарден П.Т. де. Феномен человека. - М., 1987.
58.Шелер М. Положение человека в космосе // Шелер М. Избранные произведения. М.:Гнозис, 1994.
59.Ясперс К. Смысл и назначение истории. - М., 1991.

**İnternet resursları:**

60.http://www.antropology.ru
61.http://www.humanities.edu.ru
62.http://www.courier.com.ru/homo
63.http://www.antropolog.ru
64.http://www.philosophy.

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

Doktorantların **72** – "Fəlsəfə" hazırlıq istiqaməti, 7202.01 - "Fəlsəfi antropologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Fəlsəfi antropologiya"ya aid mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- fəlsəfəyə aid biliklər; fəlsəfi tədqiqatların metodoloji xarakteristikaları; fəlsəfə elminin nəzəri əsasları, tədqiqat məsələlərinin qoyuluşu üsulları, fəlsəfə elminin inkişaf qanunauyğunluqları;
- fəlsəfi biliyin mahiyyəti, alınması yolları, metodları haqqında adekvat təsəvvür yaratmaq və qazanılmış bilikləri ictimai praktikada və elmi fəaliyyətdə tətbiq etməyi, idraka dair proseslərin və hadisələrin öyrənilməsinə müasir metodoloji yanaşmaları anlamağı və tətbiq etməyi, qnoseologiya və epistemologiya problemlərinə dair əsaslandırılmış şəxsi fikrini ifadə etməyi bacarmaq, elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanmasını, təhlil olunmasını, analizini və təsnifatını həyata keçirə bilmək.
- baxılan sahədə yaranmış mövcud elmi-

metodoloji yanaşmaları təhlil etmək, fəlsəfi tədqiqatların metodologiyasının bu və ya digər məsələləri barədə şəxsi nöqteyi-nəzərini ifadə etmək və əsaslandırmaq qabiliyyəti.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **A("əla"), B-C("yaxşı"), D-E("kafi") və ya F("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **A (əla)** | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, fəlsəfi antropologiyanın tarixi, aktual nəzəri problemləri, fəlsəfə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant fəlsəfi antropologiyanın konseptual problemləri üzrə müxtəlif |

| | |
|---|---|
| | doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. |
| **B-C (yaxşı)** | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, fəlsəfi antropologiyanın tarixi, aktual nəzəri problemlər, fəlsəfə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant fəlsəfi antropologiyanın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. |
| **D-E (kafi)** | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, fəlsəfi antropologiyanın tarixi, aktual nəzəri problemlər, fəlsəfə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı |

| | |
|---|---|
| | elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant fəlsəfi antropologiyanın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. |
| **F (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, fəlsəfi antropologiyanın tarixi, aktual nəzəri problemlər, fəlsəfə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum səviyyədə tanış olduğunu göstərir. Doktorant fəlsəfi antropologiyanın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini |

| | |
|---|---|
| | əsaslandırmağı bacarmır. |

## VI BÖLMƏ.FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZIRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Fəlsəfədə insan mövzusunun yeri
2.Fəlsəfi antropologiyanın xüsusiyyətləri.
3.Elmi və fəlsəfi bilik sistemində fəlsəfi antropologiya.
4.Müasir elmi idrak və insan problemi.
5.Fəlsəfi antropologiyanın predmeti, vəzifələri, funksiyaları.
6.Biliklər sistemində antropologiyanın meydana gəlməsi və statusu.
7.Müasir fəlsəfi antropologiyanın problem dairəsi.
8.Antropoloqizm, antroposentrizm, antropomorfizm, humanizm metodoloji və dünyagörüşü yanaşması kimi.
9.Qədim Şərq fəlsəfi ənənələrində insan fəlsəfi refleksiyaların predmeti kimi.
10.Platonçuluqda, aristotelimizdə insan mahiyyətinin interpretasiyası.
11.Orta əsrlər dövründə şəxsiyyət ideyası və antropologiyanın teoloji əsasları.
12.İslam dünyagörüşündə insan problemi.
13.Renessans humanizmində universal şəxsiyyət konsepsiyası.
14.R.Dekartın insan haqqında dualistik təlimi.
15.Maarifçiliyin ingilis-fransız modellərində “insan-maşın”

16.Alman klassik fəlsəfəsində insan varlığının transendental və mədəni-tarixi əsasları.
17.Azərbaycan fəlsəfi fikrində insan problemi.
18.M.Şelerin antropoloji təlimi; aksiologiya və sosiologiya.
19.X.Plesner: insan mövcudluğunun bazis strukturunun axtarışları.
20.A.Helen: müasir antropologiyada insan layihəsi; sosial institutların antropoloji anlamı.
21. Müasir personalizmdə(M.Bubber, K.Yasper, E.Munye) şəxsiyyətin kommunikativ təbiəti.
22.M.Haydeggerin eqzistensional ontologiyası.
23.Fransız ekzistensional fəlsəfəsində azadlıq problemi (J.P.Sartr, A.Kamyu).
24.Antropogenez probleminin mahiyyəti.
25.İnsanın heyvanlar aləmi sistemində yeri.
26.Homo-insan cinsinin təkamülünün təbii-tarixi pillələri.
27. Filogenez və ontogenez nəzəriyyəsi.
28.İnsanın mənşəyi haqqında kreasionizm konsepsiyası.
29.İnsnın mənşəyi haqqında bioloji konsepsiya.
30.İnsanın mənşəyi haqqında əmək konsepsiyası.
31.İnsanın mənşəyi haqqında mutasiya və kosmik konsepsiya.
32.Təkamülün sintetik nəzəriyyəsi.İki sıçrayış nəzəriyyəsi
33.Antropogenezin mono- və polisentrik nəzəriyyələri.

34.İnsanda bioloji və sosial aspektlərin nisbəti məsələlərinin əhəmiyyəti və səbəbləri.
35.İnsanın bioloji mövcudluğu.
36.Biheoverizim və neobiheoverizimdə insanın funksional davranış modeli (E.Torndayk, C.Uotson, F.Skinner).
37.Pozitivist antropologiyada (O.Kont, H. Spenser) təkamülçülük və üzvülük ideyaları.
38.Şəxsiyyət və mədəniyyətin inkişafında genetik əsaslar haqında müasir sosiobiologiya (E.Uilson, Ç. Lamsden, M.Ryuz, D.Fridmen).
39.Müasir fəisəfə və mədəniyyətdə transhumanizım fenomeni.
40.İnsanın sosial mahiyyəti.
41.Marksizm və postmarksizmdə (M.Horkhaymer, Tadorno, H.Markuze, Y.Habermas) özgələşmə problemi və futuroloji ideallar.
42.Strukturalist antropologiya: dil və hakimiyyət diskurslarına görə insan (K.Levi-Stross, J. Lakan, M.Fuko).
43.İnsan subyektivliyinin tənqidi, poststrukturalizm və postmodernizmdə (R.Bart, J.Derrida, J.Bodriyar, J.F.Liotar) “müəllifin ölümü”.
44. İnsan mövcudluğunun sosiomədəni səciyyəsi.
45.İnsan bədəni ilə əlaqədar mədəniyyətdə dixotomluq və holizm.
46.İnsan tələbatları və istəkləri və onların L.Maslouya görə ierarxiyası.

47.M.Merlo-Pontiyə görə insanın fenomenal cismaniliyi.
48.Z.Freyd və K.Q.Yunqun psixoanalizində insan bədəni, cismaniliyi problemi.
49.İnsanın mənəvi aləmi və onun sosial fəlsəfi mahiyyəti.
50.İnsanın emosiyaları və ona dair baxışlar.
51.Yaradıcılıq və onun məhiyyəti.
52.İntuisiya və onun mahiyyəti.
53.Fəlsəfədə həyatın mənası problemi.
54.Ölüm və ölməzlik. Ölüm və ölməzlik arasında canlı əlaqə.
55.Yaradıcı ölməzlik, aktual ölməzlik.
56.Aktiv uzunömürlülük və insan səadəti.
57.Evtanaziyanın mənəvi-əxlaqi əsasları.
58.İnsan həyatının sonlu olması.
59.Fəlsəfədə şüur probleminin qoyuluşu.
60.Şüurun mənşəyi.
61.Şüurun ictimai təbiəti və mənbələri.
62.Şüurun strukturu. Mənlik şüuru.
63.Dərrakə və zəka. Ağıl və müdriklik.
64.Şüur və dil. Şüurun yaradıcı xarakteri.
65.İnsan psixikasında şüuri və qeyri-şüuri.
66.İnsan təfəkkürü biopsixososial hadisə kimi.
67.Şəxsiyyətin sosiallaşma prosesi: başlıca mexanizmlər və institutlar.
68.Təhsilin fəlsəfəsi. Təhsil sosial institut kim.
69. Fəaliyyət insanın başlıca səciyyəsi kimi. Fəaliyyət anlayışı və onun strukturu.

70.Fəlsəfədə yaradıcılıq mövzusu. Yaradıcı fəaliyyətin mexanizmləri və formaları.
71.Müasir informasiya məkanında virtuallaşma. Virtual kommunikasiyanın problemləri və perspektivləri.
72.İnsan və bəşəriyyətin gələcəyini təmin etmək.
73. Müasir qlobal problemlərin antropogen faktorı. İnsan sivilizasiyasının fəlakət qarşısında olması.
74.İnsan və bəşəriyyətin gələcəyinin öyrənilməsi.
75.Elmin inkişafının insan haqqında təsəvvürlərə təsiri.